# MƏMMƏD ARAZ YARADICILIĞINDA TƏBİƏT SEVGİSİ

**Aytən Musayeva**

*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Bakı*
*ayten.musa88@gmail.com*

Yer kürəsində canlı aləmin təbii inkişafı üçün normal şəraitin qorunub saxlanılmasında yaşlı nəsillə birlikdə gənc nəslin də üzərinə mühüm vəzifə düşür. Belə ki, gənc nəslin hərtərəfli yetişməsində bütün tərbiyə formaları kimi (fiziki tərbiyə, estetik tərbiyə, əxlaqi tərbiyə və s.), ekoloji tərbiyə də ən önəmli bir məsələdir. İndiki dövrdə yetişməkdə olan gənc nəslin ekoloji tərbiyəsi bəşəriyyətin qarşısında duran qlobal problemdir. Ekologiya ilə bağlı əksər sənədlərdə ətraf mühitin mühafizəsinin əhəmiyyəti və ekoloji tərbiyə məsələlərinin hətta məktəbəqədər dövrdən başlayaraq həyata keçirməyin vacibliyi öz əksini tapır. Ona görə də gələcək nəslin ekoloji ruhda tərbiyə olunması uşaqların ən kiçik yaşlardan başlayaraq tərbiyə olunmasını tələb edir. Ekoloji tərbiyənin mühüm vəzifələrindən biri uşaqlarda və gənclərdə təbiətə, ətraf mühitə məhəbbət və rəğbət hissi yaratmaq, onları yaş səviyyələrinə uyğun onun mühafizəsində durmağa hazırlamaqdır. İkincisi, ekoloji tərbiyə gənc nəsildə ekoloji baxışların və mühakimənin yaradılmasına kömək göstərməlidir. Üçüncüsü, ekoloji tərbiyə uşaqlara ekologiyanın müxtəlif sahələri üçün bilik, bacarıq və vərdişlərə yiyələnməkdə kömək olmalıdır.

Yuxarıda deyilən vəzifələrin həyata keçirilməsinin ilk plana çəkilməsini arzu edirəm. Bu baxımdan Əməkdar İncəsənət xadimi, Dövlət Mükafatı Laureatı, "İstiqlal" ordenli Xalq şairi Məmməd Arazın yaradıcılığına, gündəmdən düşməyən, yaddaşlardan silinməyən unudulmaz əsərlərinə nəzər salaraq, poeziyanın ekoloji tərbiyədə vacib rol oynadığını diqqətinizə çatdırmaq üçün onun əsərlərinə müraciət

etməyi və şairin bir vətəndaş kimi bu məsələyə münasibətini araşdırıb, oxuculara təqdim etməyi özümə borc sayıram. Məmməd Araz poeziyasının işığına minlərlə oxucu yığışır və hər birinin qəlbinə bu nurdan pay düşür, qəlbindəki qığılçımı alovlandırır. Çağdaş Azərbaycan ədəbiyyatının və milli şeirimizin ən kamil və ötkəm, təsirli və dəyərli poetik nümunələrini yaradan, lakonik və yığcam ədəbi söz ustadı Məmməd Arazın irsində təbiət mövzusunun ecazkar bir tutumu var.

Coğrafiyanın təfəkkürü tutumludur, dərindir, geniş həcmlidir, çoxsahəlidir. Bu səbəbdən də M.Araz yaradıcılığında təbiət–cəmiyyət problemi diqqətəlayiq yer tutur. M.Araz ayrı-ayrı proseslərin və təbii komplekslərin əmələ gəlməsini, inkişafını, qarşılıqlı əlaqəsini son həddə ictimai-siyasi proseslərlə qovuşduraraq onları böyük ustalıqla şeirə gətirir. Məmməd Araz Vətənimizin dağ yamaclarında müxtəlif səbəblərdən yaranmış qayaların hər birini vətən keşiyini çəkən qəhrəman əsgərə, qayaları bütövlükdə vətəni qoruyan güclü orduya bənzədir. O, müdrik bir şair, görkəmli bir mütəfəkkir səviyyəsinə qalxaraq deyir ki, vətənin daşı olmayandan, olmaz ölkə vətəndaşı. M.Arazı bu fikrə gətirən təbiətin bir parçasıdır, başqalarına adi görünən daşdır. Biz şairin şeirlərini oxuyarkən, orada elə bir fikir ümumiləşməsinə, poetik duyğuya rast gəlirik ki, o fikirləri ancaq təbiəti, ekoloji problemləri, demoqrafik prosesləri yaxşı bilənlər şeirə gətirə bilər. M.Araz çox böyük şair ustalığı ilə təbiəti ürəyə bənzədir və bununla ürəyin böyüklüyünü, davamlılığını və tutumluluq dərəcəsini poetik ustalıqla tərənnüm edir.

Ürəkdə Ay doğur, Günəş də batır:
Göy qopur, ildırım çaxır ürəkdə.
Tufan da hayqırır, sükut da yatır,
Alov da, Gürşad da yağır ürəkdə...

Poetikləşmiş obrazlılıqda bənzətmə, müqayisə mühüm vasitədir. Bu məsələdə Aristotel tamamilə haqlıdır. O yazır: "Bədii təfəkkürün başlıca vəzifəsi hər hansı maddi varlıqlarda çatışmayan əlamət, keyfiyyət və xüsusiyyətləri yaradıcı xəyalın qüdrəti ilə sənət əsərində tamamlamaqdan ibarətdir".

Obrazlılıq poetik kəşf, yaradıcılıqdır. Ədəbiyyatda poetik obrazlılıq sənətkarın özünəməxsusluğu, başqasından fərqlənmək meyarıdır. Məmməd Arazın misraları bulaq suyu kimi duru, cazibədardır və poetik obrazlılığın bənzərsizliyindən yoğrulmuşdur:

Dağlara qar düşdü, uyudu dağlar,
Dağlar həm qocaldı, həm ucaldılar.
Mələyə-mələyə quzu bulaqlar,
Daşların dibində yetim qaldılar.

Yuxarıdakı poetik parça oxucuya güclü təsirli estetik zövq verə bilər, eyni zamanda şairin təlqin etmək istədiyi fikrin canlı əksinin obrazlı şəkildə yaddaşımıza həkk olunmasında böyük rol ynaya bilər.

Məmməd Araz poeziyasında təbiətə tükənməz məhəbbət var. O, təbiətlə danışmağı və təbiəti danışdırmağı bacarır, təbiət vasitəsilə cəmiyyəti görə bilir. Sənətkar cəmiyyətdə də təbiət axtarır, cəmiyyət hadisələrində, insanların xasiyyətində, davranışında təbiətin saflığını görmək istəyirdi. Çünki cəmiyyət təbiətləşəndə gözəl olur. Məmməd Arazın təbiətə vurğunluğunun əsasında torpağa, daha geniş mənada, doğma Vətənə ölçüyəgəlməz sevgi dayanır. O, şeirlərinin birində deyir:

Yerdə çörək diləyən,
Xış dili bilməliydi,
Quş dili bilməliydi,
Daş dili bilməliydi.

Həyata və dünyaya, keçmişə və gələcəyə, torpağa və daşa, nəhayət, insana və Vətənə bağlılığın bu qədər səmimi, bu qədər dəqiq, eyni zamanda bu qədər poetik ifadəsi son dərəcə nadir sənət hadisəsidir. Məmməd Arazın bütün yaradıcılığında təbiət ünsürlərindən biri kimi özünü qabarıq şəkildə hiss etdirən daş obrazı "Əsgər qəbri haqqında ballada" əsərində də mühüm yer tutur. "Daş" kəlməsini müxtəlif poetik məqamlarda müxtəlif nüanslarla istifadə edən şair bu leksik vahidi zəngin bədii ifadə yaradıcılığının poetik obrazlarından birinə çevirir:

Bura – bütün evlərinin
Odu itmiş daş şəhərcik.
Sakinləri tarixlərə qonaq getmiş daş şəhərcik,

Bu şəhərdə sakinlərin söhbətləri daş dilində,
Sevgiləri, nifrətləri daş dilində.
Daş dilinin elə ağır havası var,
Daş dilinin hələ susmaz davası var.

Məmməd Araz yaradıcılığını vərəqlədikcə hiss olunur ki, o, təbiəti böyük məhəbbətlə sevirmiş. Ona görə də təbiətin qorunması probleminin həllini böyük uzaqgörənliklə insanın təbiətə olan məhəbbətində axtarırmış. Şairin fikrincə, əgər təbiətə qarşı insan məhəbbəti, insan həssaslığı varsa, demək bu, hər şeydir. Şair Azərbaycan təbiətindən doymadığını dəfələrlə etiraf etmiş və dağlardan ayrılarkən həm özü kövrəlmiş, həm də oxucularını kövrəltmişdir. Budur Məmməd Arazın böyüklüyü və ucalığı:

Bəlkə bu yerlərə bir də gəlmədim,
Duman, salamat qal, dağ, salamat qal.
Dalımca su səpir yoxsa buludlar? –
Leysan, salamat qal, yağ, salamat qal!

Təbiətin dilində təbiət və cəmiyyət hadisələrindən böyük sənətkarlıqla yazan, poeziyamızı, dilimizi zənginləşdirən, adi sözə böyük poetik məna və can verən ustad şair Məmməd Araz ədəbiyyatımızın, söz sənətimizin ilham qaynağıdır. Vətən daşı olan milli şeirin özəyi, meyarı Məmməd Araz şeiri, Məmməd Araz sözü canlılığı, əbədiyaşarlığı ilə gələcək nəsillərə əvəzsiz bir yadigardır.